AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN ƏDƏBİ TƏNQİDİNİN TARİXİNDƏ SOSİALİST REALİZMİNƏ ELMİ BAXIŞLAR

**İxtisas:** 5716.01- Azərbaycan ədəbiyyatı

**Elm sahəsi:** Filologiya

**İddiaçı:** Kamilə Bahaddin qızı ƏLİYEVA

**Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilən dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2021**

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan və dünya ədəbiyyatı" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Filologiya elmləri doktoru, professor
**Təyyar Salam oğlu Cavadov**

**Rəsmi opponentlər**: Filologiya elmləri doktoru, dosent
**Elçin Əli oğlu Mehrəliyev**

Filologiya elmləri doktoru, dosent
**Əlizadə Bayram oğlu Əsgərli**

Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Yədulla Beydulla oğlu Dadaşlı**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
______________ **Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
______________ **Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, professor
______________ **Cəlal Əbil oğlu Qasımov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və öyrənilmə dərəcəsi.** Azadlığı əlindən alınmış, milli müstəqil dövləti çökdürülmüş xalq yetmiş il müstəmləkə rejimində yaşadıqdan sonra, yenidən öz müstəqilliyinə qovuşur. Baş verən qlobal siyasi proseslər dalğasında Azərbaycan xalqı bütün sferalarda, o cümlədən ədəbi-mədəni sahədə keçib gəldiyi tarixi yola qiymət vermək zərurəti qarşısında qalır. Bütün sahələrdə olduğu kimi ədəbiyyat sahəsində də keçilmiş yolu analitik elmi təhlildən keçirmək milli tənqidi düşüncənin qarşısında bir vəzifə kimi dayanır. Nəzərə alsaq ki, heç bir tarixi dövrdə ədəbiyyata sovet sisteminin müdaxiləsi qədər müdaxilə olmayıb, bu sistem ədəbiyyata birmənalı şəkildə ideoloji təbliğat vasitəsi kimi yanaşıb və nəticə olaraq onu öz predmetindən uzaqlaşdırmağa çalışıb, onda bu tarixi dövrün ədəbiyyat siyasətinin mahiyyətinin açılmasına nə qədər ciddi ehtiyac olduğu aydın olar. Ədəbiyyatımızın bundan sonrakı inkişafının bu mahiyyətin düzgün açılması ilə birbaşa bağlı oldğunu da nəzərə almalıyıq. Milli tənqidi düşüncədə bu istiqamətdə görülən işlərin aktuallığı və müasirliyi də bununla müəyyən olunur. Analitik təhlilin əhəmiyyəti bir də onunla şərtlənir ki, sovet müstəmləkə rejiminə kəskin tənqidi yanaşma, bəzi hallarda bu dövrdə yaranan mədəni irsi də əhatə edirdi.

Sovet rejiminin ilk onilliklərində mədəni irsə proletkultçu – inkarçı münasibətin milli müstəqillik dövründə sovet dövrü mədəniyyətinə tətbiqi qorxusu, bu irsi bütövlükdə inkar tendensiyaları da meydana çıxırdı. 70 illik dövrün ədəbiyyatının metodoloji istiqamətli dəyərləndirilməsinə yaranan ehtiyacı bu cəhət də şərtləndirir.

Azərbaycan ədəbi tənqidinin tarixi inkişaf mərhələlərində sosialist realizmi yaradıcılıq metoduna elmi baxışın təkamül prosesini izləmək məhz bu mənada ciddi aktuallıq və dəyər qazanır.

Sosialist realizmi yaradıcılıq metodunun estetik prinsiplərinin müəyyənləşməsində və nəzəri əsaslarının formalaşmasında ədəbi tənqidin mühüm rolu olmuşdur. Sosialist realizminin ilk tarixi

inkişaf mərhələlərində tənqid metodun ədəbi prosesdəki rolunu və yerini aydınlaşdırmağa daha çox üstünlük vermişdir. Lakin zaman keçdikcə tənqidin sosialist realizminə elmi baxışları da təkamül prosesi keçirmiş, bu prosesdə yaradıcılıq metodunu şərtləndirən amillərə, estetik prinsiplərə fərqli yanaşmalar olmuşdur. Sosialist realizminin ədəbi prosesin inkişafında qanunauyğun estetik hadisə kimi meydana çıxdığını əsaslandırmaq zaman keçdikcə tənqidin qarşısında əsas vəzifələrdən biri kimi durmuş və bu vəzifədən irəli gələrək ədəbi tənqid və ədəbiyyatşünaslıqda "ədəbi tənqid və sosialist realizmi yaradıcılıq metodu" problemi aktuallıq qazanmışdır. Problemin elmi həlli tənqidin keçdiyi tarixi yolda sosialist realizminə yanaşmaların tarixini tədqiq etməyi, alınan nəticələri ümumiləşdirməyi zəruri etmişdir.

Ədəbi tənqid və sosialist realizmi yaradıcılıq metodu məsələsi ədəbiyyatşünaslıq problemi kimi daha çox 60-cı illərdən başlayaraq aktuallıq qazanmışdır.

Ədəbiyyatşünaslıqda, ilk növbədə, problemi tənqidin keçdiyi inkişaf mərhələləri fonunda araşdırmaq tendensiyası aparıcı olmuşdur. Bu mənada S.Əsədullayevin "Sosialist realizminin tarixiliyi, nəzəriyyəsi və tipologiyası" adlı tədqiqatını xüsusi fərqləndirmək lazımdır. Onun tədqiqatının I fəsli "Sosialist realizmi nəzəriyyəsi tarixilik işığında" adlanır və tədqiqatçı "Sosialist realizmi konsepsiyası 20-ci illər tənqidində" və "Sosialist realizmi nəzəriyyəsi 30-cu illər tənqidində" adlı yarımfəsillərdə tənqidin sosialist realizmi yaradıcılıq metodu istiqamətindəki axtarışlarını metod və üslub, metod və dünyagörüşü, sosialist realizmi və klassik irs, sosialist realizmində inqilabi romantika, metodun tənqid pafosu, sosialist realizmində xarakter problemləri ətrafında cəmləşdirərək araşdırır [1]. Ş.Salmanovun "Müasir Azərbaycan tənqidinin təşəkkülü və inkişaf meylləri" adlı doktorluq

---

[1]Асадуллаев, С.Т. Историзм, теория и типология социалистического реализма / С.Асадуллаев. – Баку: Азербайджанское Государственное Издательство, – 1969. – 279 с.

dissertasiyasının da bir fəsli "Ədəbi tənqid və yaradıcılıq metodu problemi" kimi müəyyənləşir. Bu tədqiqatda da əsas araşdırma obyekti kimi 20-30-cu illər tənqidi götürülür. Sonrakı mərhələlərdə tənqidin yaradıcılıq metoduna yanaşmalarını tədqiqatçı çox yığcam xülasə etməklə kifayətlənir. Ş.Salmanov 40-50-ci illər tənqidində sosialist realizminə elmi baxışın əsas tendensiyasını belə səciyyələndirir: "*Belə ki, müharibə və müharibədən sonrakı illərdə tənqiddə sosialist realizmi, demək olar ki, eynilə 30-cu illər səviyyəsində qoyulmuş və izah edilmişdir*"[2] Tədqiqatçı sosialist realizminə elmi baxışda 60-80-ci illəri yeni keyfiyyət mərhələsi kimi qəbul edir və onu aşağıdakı kimi səciyyələndirir: "*Xüsusilə 60-80-ci illərdə metodun nəzəriyyəsi əsaslı surətdə dəyişdi, öz əvvəlki məzmunundan əhəmiyyətli dərəcədə seçilməyə başladı... Nəzəriyyə sosialist realizmini açıq estetik sistem kimi başa düşür və təqdir edirdi*"[3].

B.Əhmədovun "20-30-cu illər tənqidində metodoloji dəyərləndirmənin bəzi aspektləri" məqaləsində 20-30-cu illər tənqidinin proletar ədəbiyyatı yaratmaq və onun metodu və metodoloji istiqamətləri ilə bağlı axtarışları[4], N.Şəmsizadənin "Əli Nazim" tədqiqatında "*bədii metod probleminin qoyuluşu və metod haqqında nəzəri konsepsiyanın formalaşması*" məsələsi[5] qoyulur, T.Salamoğlunun "Ədəbi tənqid tarixinə dair portret-oçerklər" kitabında Ə.Nazimə, M.Hüseynə və digər tənqidçilərə həsr olunmuş oçerklərdə tənqidin yaradıcılıq metoduna baxışlarının

---

[2] Salmanov, Ş. Müasir Azərbaycan ədəbi tənqidinin təşəkkülü və inkişaf meylləri: / filologiya üzrə elmlər doktoru dissertasiyası / – Bakı, 1996. – 389 s.

[3]Yenə orada, s.370

[4] Əhmədov, B. 20-30-cu illər ədəbi tənqidində metodoloji dəyərləndirmənin bəzi aspektləri // XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. I kitab. – Bakı: Elm, – 2006. – s.222-236.

[5] Şəmsizadə, N. Əli Nazim // Şəmsizadə, N. Seçilmiş əsərləri: [3 cilddə] / N.Şəmsizadə. – Bakı: Elm, – c.2. – 2010. – s.11-231.

ideoloji, sinfi-məfkurəvi və estetik yanaşmalarının bəzi cəhətlərinə aydınlıq gətirilir[6] .

Ədəbi tənqid və yaradıcılıq metodu istiqamətindəki axtarışlarda ədəbi tənqidin romantika və romantik ənənə[7], fərdi üslub və üslub tipologiyası [8] məsələləri araşdırma obyekti olmuşdur.

Bu araşdırmalar ədəbi tənqidin tarixi inkişaf mərhələlərində sosialist realizmi yaradıcılıq metoduna elmi baxışların bir çox səciyyəvi cəhətlərini üzə çıxarmaq baxımından çox əhəmiyyətlidir. Lakin nəzərə almaq lazım gəlir ki, bu istiqamətdə aparılan sistemli tədqiqatların əksəriyyəti tənqidin 20-30-cu illər mərhələsini çevrələyir. Tənqidin sonrakı inkişaf mərhələlərində sosialist realizminə elmi baxışların tədqiqi yalnız ayrı-ayrı məqalələr səviyyəsində öyrənilmişdir. Heç şübhəsiz ki, məsələnin bu tərəfi tənqidin 30-cu illərdən sonrakı mərhələlərini sözügüdən problem baxımından sistemli araşdırma obyektinə çevirməyi zərurətə çevirir. Əgər, onu da nəzərə alsaq ki, 20-30-cu illər tənqidi ilə bağlı aparılan araşdırmaların da böyük əksəriyyəti sovet metodologiyası əsasında aparılmışdır, onda problemin müstəqillik dövrünün ədəbiyyatşünaslıq düşüncəsi ilə sistemli araşdırılmasının əhəmiyyətini bir daha aydın təsəvvür etmək olar.

**Tədqiqatın obyekti və predmeti.** Əsası M.F.Axundzadə tərəfindən qoyulan, XX əsrin ilk iki onilliyində ciddi formalaşma mərhələsi keçirən milli ədəbi tənqidimiz sovet dövründə son dərəcə mürəkkəb tarixi inkişaf mərhələlərindən keçmişdir. Bu tarixi inkişaf mərhələlərində onun sovet ədəbiyyatının yeganə yaradıcılıq

---

[6]Salamoğlu, T. Ədəbi tənqid tarixinə dair portret-oçerklər / T.Salamoğlu. – Bakı: Vətənoğlu NPŞ MMC, – 2014. – 332 s.

[7] Alışanov, Ş. Sosialist realizmi nəzəriyyəsinin inkişafında milli ədəbi təcrübənin rolu (romantika və romantik ənənə problemi) // Yaradıcılıq metodu məsələləri. – Bakı: Elm, – 1989. – s.3-20.

[8] Quliyev, V. Sosialist realizmi nəzəriyyəsində fərdi üslub və üslub tipologiyası problemi // Yaradıcılıq metodu məsələləri. – Bakı: Elm, – 1989. – s.21-40.

metoduna münasibəti ziddiyyətli, eyni zamanda, prioritet məsələ olmuşdur. Sovet ədəbiyyatının yaradıcılıq metodundan bəhs edən ədəbi-tənqidi və elmi-nəzəri ədəbiyyat dissertasiyanın tədqiqat obyekti kimi seçilmişdir.

Ədəbi tənqidin tarixi inkişaf mərhələlərində sosialist realizmi yaradıcılıq metoduna ədəbi-elmi baxışın təkamül prosesini izləmək, fərqli mərhələlərdə yaradıcılıq metoduna dair axtarışların, ona verilən tələblərin səciyyəvi cəhətlərini aşkarlamaq tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi sosialist realizmi yaradıcılıq metodunun keçdiyi tarixi inkişaf yolundakı özünəməxsusluqları milli ədəbi tənqidin 1920-ci ildən bu günə qədər keçdiyi inkişaf mərhələlərinin materialları əsasında araşdırmaq, yaradıcılıq metoduna tənqidi yanaşmanın obyektiv mənzərəsini yaratmaqdır.

Bunun üçün aşağıdakı problemlərin elmi həllini vermək vəzifə kimi qarşıya qoyulmuşdur:

- 1920-ci ildən sonra Azərbaycan ədəbi tənqidinin keçdiyi tarixi inkişaf yolunun mərhələ və yarımmərhələ təsnifatını vermək;
- Mərhələ və yarımmərhələləri şərtləndirən ictimai-siyasi prosesləri şərh etmək, dəyişən ictimai-siyasi proseslər zəminində tənqidin yaradıcılıq metoduna elmi baxışının səciyyəsini aydınlaşdırmaq;
- 20-30-cu illərdə tənqidin yeni yaradıcılıq metoduna dair axtarışlarının mənzərəsini yaratmaq;
- "Dialektik materializm"dən "sosialist realizmi"nə keçidin mahiyyətinə nüfuz etmək;
- 20-30-cu illər tənqidində "sinfi insan", "canlı insan" problemlərinin qoyuluşu və onların yaradıcılıq metodunun təbiəti ilə əlaqəsini izah etmək;
- 20-30-cu illər tənqidində "bədii dəyər uğrunda" mübarizənin ideoloji-məfkurəvi və estetik əsaslarını şərh etmək;
- 1932-34-cü illərdən 40-cı illərin birinci yarısına qədərki mərhələdə ədəbi tənqidin sosialist realizminin bədii inikas

imkanlarını genişləndirmək cəhdlərinin səciyyəsinə aydınlıq gətirmək;

- 1940-cı illərin ikinci yarısından 50-ci illərin ortalarına qədərki mərhələdə sosrealizmin ideoloji məzmununun yenidən qüvvətləndirilməsi ilə bağlı tənqidin üzərinə qoyulan vəzifələr və bunun ədəbi inkişafa təsirinin mənfi nəticələrini izah etmək, obyektiv mənzərəsini yaratmaq;
- Yeni keyfiyyət mərhələsində (50-ci illərin ikinci yarısı 60-80-ci illər) ədəbi tənqidin sosrealizmdə üslub tipologiyası proleminə baxışlarını şərh etmək;
- Ədəbi tənqid və sosrealizmdə müsbət qəhrəman məsələsini tarixi təkamül prosesində izləmək;
- Sosialist realizmi yaradıcılıq metodu və bədii şərtilik məsələsinə tənqidi baxışlardakı fikir ayrılıqlarını aşkarlamaq;
- 60-80-ci illər tənqidinin "sosrealizm və realizmin tarixi tipləri" probleminə elmi baxışlarını araşdrmaq;
- Müstəqillik dövrü tənqidində sosrealizmə əks yanaşmaların mahiyyətini açmaq.

**Tədqiqat metodları.** Dissertasiyada ədəbi tənqidin tarixi inkişaf mərhələlərində sosialist realizminə elmi baxışlar tarixi-müqayisəli və tipoloji araşdırma üsulları ilə təhlilə cəlb olunmuşdur.

Tədqiqat işində sürətlə dəyişən zamanın inkişaf məntiqi, milli estetik və elmi düşüncənin tələblərindən irəli gələn vəzifələr, müasir Azərbaycan ədəbiyyatşünaslığının formalaşmaqda olan metodoloji prinsipləri, dünya, xüsusən rus ədəbiyyatşünaslığında realizm problemləri, o cümlədən sosialist realizmi məsələləri ilə bağlı aparılan müasir tədqiqatlar da metodoloji əsas kimi götürülmüşdür.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

Azərbaycan ədəbi tənqidində sosialist realizmi yaradıcılıq metoduna elmi baxışın təkamül prosesini üç mərhələ üzrə izləmək mümkündür:

*Birinci mərhələ* XX əsrin 20-30-cu illərini əhatə edir və dörd yarımmərhələdən ibarətdir - I yarımmərhələ - 1920-ci ildən 1925-ci ilə qədər; II yarımmərhələ - 1925-ci ildən 1932-1934-cü ilə qədər; III yarımmərhələ - 1932-1934-cü ildən 1940-cı ilə qədər.

Birinci mərhələdə ədəbi tənqiddə "dialektik materializm"dən "sosialist realizmi"nə keçid məsələsi, "sinfi insan" və "canlı insan" problemləri qaldırılır, "bədii dəyər uğrunda" mübarizə əsas olur, "proletar ədəbiyyatının" formalaşdırılması aparıcı mövqeyə keçir.

*İkinci mərhələ* XX əsrin 40-cı illərini və 50-ci illərin birinci yarısını əhatə edir və iki yarımmərhələdən ibarətdir - I yarımmərhələ: 1940-cı ildən 1946-cı ilə qədər; II yarımmərhələ: 1946-cı ildən 50-ci illərin ortalarına qədər.

Bu mərhələ ədəbi tənqidin sosialist realizminin bədii inikas imkanlarını genişləndirmək cəhdləri ilə yadda qalır. Siyasi rejimin ədəbiyyat siyasətinin fəallaşması, sosialist realizminin ideoloji məzmununun qüvvətləndirilməsi və ədəbi tənqidin bu prosesdə fəal iştirakı və b. məsələlər bu mərhələni səciyyələndirir.

*Üçüncü mərhələ* XX əsrin 50-ci illərinin ikinci yarısından milli müstəqillik dövrünə qədərki (60-80-cı illər) zaman kəsimini əhatə edir və ədəbi tənqiddə yeni keyfiyyət mərhələsi adlanır. Bu dövr sosialist realizmi yaradıcılıq metoduna kəskin tənqidi yanaşmaların zaman keçdikcə analitik münasibətlə əvəz olunması, bu metodun (yaxud ədəbi cərəyanın) qeyri-estetik prinsiplərindən imtina edib, ədəbiyyatın gələcək perspektivlərini müəyyənləşdirmək cəhdləri ilə səciyyələnir.

Bu mərhələdə ədəbi tənqid - sosrealizm milli ədəbi prosesə necə daxil oldu?, ədəbi prosesin hərəkətinin qanunauyğun inkişafının nəticəsi kimi, yoxsa süni şəkildə? – kimi sualları qaldırır və onlara cavab verməyə çalışır. Bu dövrdə tənqid "sosrealizm bizə nə verdi?" sualını mübahisə predmetinə çevirməklə, bu sualın alt qatındakı "sosrelizm bizdən nə aldı" sualını da aktuallaşdırdı.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan ədəbi tənqidinin tarixi inkişaf mərhələlərində sosialist realizmi yaradıcılıq metoduna elmi baxışın təkamül prosesini izləmək məsələnin qoyuluşu və elmi

həllindəki konseptuallıq və sistemliliklə tədqiqatın yeniliyini şərtləndirən səciyyəvi cəhətdir.

Bundan əlavə, tədqiqat işi bilavasitə ilk mənbələr əsasında aparıldığı üçün problemin elmi həllinə baxışda məsələlərin ədəbiyyatşünaslığımızdakı qoyuluşundan fərqli bəzi əsas nəticələrə gəlmək mümkün olmuşdur. Bu sırada:

- Azərbaycan ədəbi tənqidinin 20-30-cu illər mərhələsinin fərqli səciyyədə dəyərləndirilməsini və mərhələdaxili təsnifatın aparılmasını qeyd etmək olar. Bu mərhələnin daxilində yarımmərhələ təsnifatı aparmaq (I yarımmərhələ: 1920-ci ildən 1925-ci ilə qədər; II yarımmərhələ: 1925-ci ildən 1932-1934-cü ilə qədər; III yarımmərhələ: 1932-1934-cü ildən 1940-cı ilə qədər) ədəbi tənqid və yaradıcılıq metodu problemini dərindən şərh etməyə və obyektiv qənaətlərə gəlməyə imkan vermişdir.

- Dissertasiyada ədəbi tənqidin hər yarımmərhələsinin əsas səciyyəvi əlamətlərinin meydana çıxarılması, yarımmərhələləri birləşdirən və ayıran cəhətlərin müəyyənləşdirilməsi məsələnin qoyuluşu və elmi həlli nöqteyi-nəzərindən ədəbiyyatşünaslığımız üçün tamamilə yenidir.

- Tədqiqatda ilk dəfə olaraq 40-cı illər və 50-ci illərin birinci yarısında ədəbi tənqidin iki yarımmərhələdən keçməsi (I yarımmərhələ: 1940-cı ildən 1946-cı ilə qədər; II yarımmərhələ: 1946-cı ildən 50-ci illərin ortalarına qədər) və bu yarımmərhələlərdə tənqidin ədəbiyyata və yaradıcılıq metoduna tam fərqli yanaşmaları, birinci mərhələdə yaradıcılıq metodunun imkanlarını genişləndirmək uğrunda, ikinci yarımmərhələdə isə tənqidin ədəbi prosesə münasibətinin ideoloji-məfkurəvi tələblərlə səciyyələnməsi, bu tələblərdə tənqidin sərt mövqedə dayanması və bütün bunların səbəbləri ilə bağlı təhlillər, əldə olunan qənaət və nəticələr ədəbiyyatşünaslığımız üçün yenidir.

- “Sinfi insan”, “canlı insan” konsepsiyalarının, “sinfi insan”dan “canlı insan”a keçidin “sinfi-canlı insan” modelinə hesablanması, “sinfi qadın” modeli, qadının cinssizləşdirilməsi ilə bağlı ədəbi-bədii prosesdə aktuallaşan məsələlərə tənqidin

münasibətinin elmi şərhində ədəbiyyatşünaslığımız üçün yeni olan cəhətlər vardır.

- Ədəbi tənqidin daha çox üzərində dayandığı "sxematiklik"in yaradıcılıq metodunun təbiəti ilə birbaşa bağlılığı, ədəbi tənqidin müxtəlif mərhələlərində tarixə münasibətin fərqli səciyyələndirilməsinin və bunun obyektiv əsaslarının aşkarlanması, hadisələrin "inqilabi inkişaf"da təsvir edilməsi prinsipinin sosialist realizmini realizmin tarixi tiplərindən fərqləndirən və metodun ideoloji təbiətini aşkarlayan keyfiyyət kimi şərhi və s. məsələlərin elmi həllindən alınan nəticələr də işin yenilikləri sırasındadır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Ədəbiyyatın tarixi müəyyən mənada ədəbi cərəyanların və metodların tarixidir. Tədqiqat işi xüsusən sosialist realizmi nəzəriyyəsinə ziddiyyətli elmi baxışlara aydınlıq gətirmək və onun obyektiv tədqiqi baxımından səciyyəvilik qazanır. Bu istiqaməti ilə araşdırma sovet dövrü ədəbiyyatının düzgün və obyektiv şəkildə araşdırılması üçün nəzəri baza rolu oynaya bilər.

Tədqiqat işinin nəticələri ali məktəblərdə sovet dövrü Azərbaycan ədəbiyyatı, ədəbi cərəyan və metodlar problemlərinə həsr olunmuş seçmə fənlərin tədrisi prosesinə əhəmiyyətli material verə bilər.

**Aprobasiyası və tətbiqi.** Araşdırmanın məzmunu Azərbaycanın və müxtəlif xarici ölkələrin elmi toplu və jurnallarında dərc olunmuş məqalə və tezisdə, konfranslarda oxunmuş məruzələrdə əksini tapmışdır.

Tədqiqatın nəticələrindən ali təhsil müəssisələrində əlavə vəsait kimi də istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasında hazırlanmışdır.

Dissertasiyanın mövzusu Azərbaycan Müəllimlər İnstitutunun 21 dekabr 2011-ci il tarixli əmri ilə verilmiş, Azərbaycan Respublikası Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının Ədəbiyyatşünaslıq üzrə Problem Şurasının 13 fevral

2014-cü il tarixli (Protokol №1) və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurasının 14 iyul 2017-ci il (Protokol №5) protokollarının qərarları ilə təsdiq olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş (14780 işarə), I fəsil (10086 işarə), II fəsil (92349 işarə), III fəsil (56889 işarə), nəticə (11439 işarə) və ədəbiyyat sıyahısından ibarət olmaqla, ümumi həcmi 276326 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiyanın ümumi səciyyəsi verilir, mövzunun aktuallığı, qarşıya qoyulan məqsəd və vəzifələr, tədqiqatın elmi yeniliyi, işlənmə dərəcəsi, praktik və nəzəri əhəmiyyəti əsaslandırılır, eləcə də müdafiəyəyə çıxarılan müddəalardan və dissertasiyanın aprobasiyasından bəhs edilir.

Dissertasiyanın I fəsli "**XX əsrin 20-30-cu illərində proletar ədəbiyyatını formalaşdırmaq uğrunda mübarizə və ədəbi tənqidin yeni yaradıcılıq metoduna dair axtarışlari**" adlanır və iki paraqrafdan ibarətdir. "*20-30-cu illərdə tənqidin yaradıcılıq metodunu siyasi-ideoloji kontekstdə dərki*" adlanan birinci paraqrafda göstərilir ki, 1920-ci ildə ADR-in çökdürülməsi və sovet siyasi rejiminin hakimiyyətə gəlməsi cəmiyyətin ictimai-siyasi həyatı ilə bərabər, ədəbi-mədəni hərəkata da əsaslı təsir göstərir.

Ədəbiyyatı proletar platformasına keçirmək, ona sinfi məzmun vermək sovet siyasi rejiminin ədəbiyyat siyasətinin əsasında dayanır və onu həyata keçirmək ədəbi tənqidin qarşısına bir vəzifə kimi qoyulur. Tənqidin ədəbi prosesə nəzarət və ona təsir imkanları miqyassız səviyyədə gücləndirilir[9].

---

[9] Əliyeva, K. 20-ci illərdən 30-cu illərə: "Dialektik materializm"dən "sosialist realizmi"nə // – Bakı: Bakı Qızlar Universitetinin elmi əsərləri, – 2014. №2(18), – s.23-31.

Ədəbiyyata sinfi baxışın ön mövqeyə keçməsi milli ədəbi prosesdə meydana çıxan fərqli inikas üsullarına, metod və cərəyanlara tənqidi və inkarçı baxışı gücləndirir.

Ədəbi mühitdə ədəbiyyatı "ümumproletar işinin bir hissəsi" kimi təsdiq edən bədii metod axtarıcılığı prosesi başlanır. 20-ci illərin əvvəllərində bu metodun adı və mahiyyəti tam aydın olmasa da, həyatı bədii inikasda hakim sinfin – proletariatın mənafeyinin önə çəkilməsi, hadisələrin sinfilik və məfkurəvilik mövqeyindən təsviri, idealist dünyagörüşündən imtina, materialist dünyagörüşünə birmənalı istinad prinsipləri əsas götürülür.

20-30-cu illərdə proletar ədəbiyyatını formalaşdırmaq və yeni yaradıcılıq metoduna dair axtarışlar kontekstində ədəbi tənqidin keçdiyi yolda bir neçə yarımmərhələni fərqləndirmək mümkündür: I. 1920-1925-ci illər; II. 1925-1932-ci illər; III. 1932-ci ildən sonrakı mərhələ.

20-ci illərin əvvəllərində milli ədəbi ənənənin qüvvətli olması, yeni ədəbiyyat təmsilçilərinin bu ənənəyə qarşı çıxmaq gücündə olmaması, yaranması nəzərdə tutulan ədəbiyyatın mahiyyətinin və yaradıcılıq metodunun tam təsəvvür edilməməsi ədəbi prosesdə milli təmayülün öz mövqeyində qalmasını təmin edir, klassiklərə və dövrün ədəbi prosesində üslub, metod, cərəyan müxtəlifliyinə, milli təmayülün təmsilçilərinə kəskin müqavimət nəzərə çarpmır.

20-ci illərin ortalarından başlayaraq rejimin ədəbi prosesə müdaxilələri güclənir. UİK(b)P MK-nın "Bədii ədəbiyyat sahəsindəki siyasəti haqqında" 1925-ci il qətnaməsi ədəbiyyatı proletar platformasına keçirməyin mühüm siyasi təkanı olur. Bu qərardan sonra yaradıcılıq metodu istiqamətindəki axtarışlar intensiv şəkil alır. Ədəbi mühitdə "proletar ədəbiyyatı özünün metodunu, yaradıcılıq yollarını müəyyən etməlidir"[10] devizi aparıcılıq təşkil edir, fəlsəfi əsasını marksizm-leninizm təşkil edən bir

[10] Hüseyn, M. Yaradıcılıq metodu məsələləri // Hüseyn, M. Əsərləri: [10 cilddə] / M.Hüseyn. – Bakı: Yazıçı, – c.9. – 1979. – s.16.

metod ətrafında axtarışlar güclənir. 1925-1932-ci illərdə yaradıcılıq metodunun adı kimi "dialektik materializm" istilahı üzərində daha çox dayanılır [11]. Proletar ədəbiyyatının hegemoniyası uğrunda mübarizə dövrünün yaradıcılıq metodunu "dialektik materializm" adı altında ümumiləşdirsək, demək lazımdır ki, bu metod mövzu məsələsinə də sərhəd qoyur və sənətkarı mövzu seçimində ciddi şəkildə istiqamətləndirirdi. Sənətkarın qarşısına müasir həyatdan, günümüzün problemlərindən yazmaq, başqa sözlə, sosializm quruculuğu uğrunda mübarizə məsələlərini təsvir predmetinə çevirmək tələbi qoyulurdu. Əli Nazim yazırdı: "*Bu günkü yeni şeirlərdə, gənc qızıl qələmlərin yazdığı və yazacağı şeirlərdə ən mühüm nöqtə məfkurədir. Biz bu gün bilxassə məfkurəvi tamlığa, doluluğa və doğruluğa diqqət etməliyik. Gərək bu günkü şeirlərimiz* (oxu: ədəbiyyatımız – K.Ə.) *tam bir kommunist-bolşevik şeirləri olsun*".[12]

Klassik irsə inkarçı münasibət, dövrünün ədəbi prosesinin nümayəndələrinin müxtəlif siyasi və ədəbi yarlıklarla damğalanması bu yarımmərhələdə aparıcı ədəbiyyat siyasəti kimi meydana çıxır. Ədəbiyyatşünaslığımızda 20-30-cu illər tənqidinin vulqar-sosioloji tənqid kimi dəyərləndirilməsi daha çox 1925-1932-ci illərdə tənqidin ədəbi prosesə ifrat sol mövqeyindən qidalanır. 1932-ci ildən başlayaraq rejimin ədəbiyyat siyasətində əsaslı dəyişiklik baş verir və bu, bədii metodun adı və məzmununda da ehtiva olunur. Klassik irsə və dövrün ədəbiyyat nümayəndələrinin yaradıcılığına sinfi münasibət yumşalır, "proletar ədəbiyyatı" anlayışı müsbət mənada transformasiyaya uğrayaraq şura ədəbiyyatı – sovet ədəbiyyatı şəklinə düşür. Ümumi şəkildə və geniş götürəndə proletar-sovet ədəbiyyatının ilk təşəkkül tarixindən üzü bəri, yaradıcılıq metodunun qəti müəyyənləşdiyi və təkamül

---

[11] Əliyeva, K. 20-30-cu illərin ədəbi tənqidində yaradıcılıq metoduna dair mübahisələr // – Bakı: Pedaqoji Universitet xəbərləri, Humanitar elmlər bölməsi, – 2014. №4, – s.290-294.

[12] Nazim, Ə. Süleyman Rüstəm haqqında kiçik bir mülahizə // Ə.Nazim. Seçilmiş əsərləri. – Bakı: Yazıçı, – 1979. – s.78.

prosesi keçirdiyi bütün mərhələlərdə məzmunla formanın bədii əsərin iki əsas tərəfi olması, bir-birini şərtləndirməsi qəbul edilmişdir. Ümumən sovet ədəbiyyatı formaca milli, məzmunca sosialist ədəbiyyatı kimi təsəvvür edilmişdir. Lakin sovet ədəbiyyatın keçdiyi tarixi inkişaf mərhələlərində məzmun və forma məsələsinə münasibət birmənalı olmamışdır. Lakin bu məqamda forma məsələsini bir qədər geniş mənada, bədii əsərin sənətkarlıq keyfiyyətlərini şərtləndirən komponent kimi başa düşmək lazımdır[13].

*"Tənqidin ictimai-məfkurəvi amillərlə bədiiliyi bir araya gətirmək cəhdləri. Sosialist realizmi yaradıcılıq metoduna verilən tələblər*" adlanan ikinci paraqrafda göstərilir ki, ədəbi prosesin hərəkətində sinfi məzmun, məfkurəvilik qalır, ancaq müəyyən qədər arxa plana keçir, "bədii dəyər uğrunda" mübarizə dövrün ədəbiyyat siyasətinin əsas mahiyyətini təşkil edir.

1932-ci ildən ədəbiyyat işinin "ümumproletar işi" elan edilməsinə tənqidi münasibət formalaşmağa başlayır. "Yazıçılar heyətinin işçiləşdirilməsi"nə tənqidi baxış güclənir. Stalin qeyri-proletar yazıçı qüvvələrinin sıxışdırılmasını, onları ayrı-ayrı "izm"lərlə damğalamağı "qruppabazlıq" adlandırır, ədəbi qüvvələrin potensialından sosializm quruculuğu naminə istifadə tam mümkün bir iş elan olunur. Stalinin tənqidi mövqeyi dialektik materializmə yaradıcılıq metodu kimi yanaşmalara analitik tənqidi baxışı gücləndirir, yaradıcılıq metodu ilə dünyagörüşü arasındakı fərqin mahiyyətinə varmağın zəruriliyini ortalığa çıxarır.

Sosialist realizmi şura (sovet) ədəbiyyatının yaradıcılıq metodu kimi qəbul edilir.

"Dialektik materializm"dən sosialist realizminə keçid ədəbiyyatın proletar platformasından ümumxalq ədəbiyyatı platformasına keçidini sürətləndirir. Tənqidin ədəbi-elmi dəyər-

---

[13] Əliyeva, K. 20-30-cu illər tənqidinin ədəbiyyatda bədiilik axtarışları // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. – 2015. №2(94). – s.167-169.

ləndirmələrində sinfilik, məfkurəvilik amillərinə istinad qismən zəifləyir. Tənqid mövzu aktuallığını, mövzunun sinfilik, məfkurəvilik mövqeyindən həllini bədii yaradıcılığın əsas şərti kimi almaq meylindən müəyyən qədər uzaqlaşmağa, sənətkarlıq məsələlərinə daha artıq diqqət yetirməyə başlayır. "Bədii dəyər uğrunda" mübarizənin "ədəbiyyatın siyasi vəziyyətinin yüksəldilməsi üçün məcburi şərt" (Averbax) elan edilməsi "tənqidin ədəbi əsəri sənətin estetikası baxımından qiymətləndirmək baxımından imkanını genişləndirməyə" (T.Salamoğlu) əsaslı təkan verir.

"Bədii dəyər uğrunda" mübarizə 30-cu illərin ortalarından sonra sosialist realizmi ədəbiyyatının klassik irsə istinad imkanlarını artırır. "Klassiklərdən lenincəsinə öyrənməli" (Ə.Nazim) devizi ədəbi prosesdə ənənəyə istinada imkan yaradır. Sosialist realizmi yaradıcılıq metodunda romantik və tənqidi realist təsvir üsullarının imkanlarından istifadəyə şərait yaradılır.

Bədiilik məsələsi "proletar ədəbiyyatının ölüm-dirim məsələsi" elan olunur: "“*Bədiilik məsələsi şəkil, məndəricə, üslub məsələsi deməkdir. Bu, proletar ədəbiyyatının ölüm-dirim məsələsidir*"[14]. Proletar ədəbiyyatının nümayəndələrinin yaradıcılığına sənətkarlıq baxımından tələblər artırılır, sənətkarlıq məsələlərinin klassiklərdən öyrənilməsinə çağırış motivləri güclənir.

Ədəbi tənqidin 20-ci illərdə ədəbi dövriyyəyə buraxılmış "sinfi insan" probleminə tənqidi baxışı meydana çıxır, "sinfi insan"dan "canlı insan"a keçid prosesinin zəruriliyi əsaslandırılır.

Tarixi mövzuya birmənalı inkarçı münasibəti 30-cu illərin ortalarında ikili yanaşma əvəz edir. Sosialist realizmi yaradıcılıq metodunda tarixi mövzuya yer ayrılır, lakin bu mövzunun bilavasitə tarixin bədii ifadəsi kimi işlənməsi qəbul edilmir, mövzunun bədii həllində tarixin həqiqi inkişaf dialektikası tarixə marksist yanaşma ilə əvəz olunur.

---

[14] Nazim, Ə. Proletar ədəbiyyatımızın yaradıcılıq siması // Ə.Nazim. Seçilmiş əsərləri. – Bakı: Yazıçı, – 1979. – s.98.

Bu mənada H.Cavidin “Peyğəmbər” əsərinə H.Zeynallının münasibətini yada salmaq olar[15]. Y.V.Çəmənzəminlinin “Qızlar bulağı” əsərinə tənqidi yanaşmalarda da bu istiqamətin aparıcı olduğunu qeyd etməliyik. Hətta H.Əfəndiyevin “Qızlar bulağı”na verdiyi qiymət tənqidin tarixi mövzuya inkarçı münasibətinin metodoloji örnəyi kimi də fərqləndirilə bilər: *“Qızlar bulağı” müəllifinin tarixi temaya müraciəti özündə qəti surətdə heç bir müsbət tendensiya daşımır, bu əsərin materialı üzərində müəllifin işi bizim bu günümüzün və gələcəyimizin anlaşılması üçün qəti surətdə heç bir əsas vermir və oxucuları doğru yola istiqamətləndirə bilmir*”[16].

İkincisi, tarixi mövzunun bədii həllində tarixin inkişaf dialektikası tarixə marksist yanaşma ilə əvəz olunurdusa, bu həmin əsərdə müasirliyin təcəssümü və hətta təntənəsi kimi qəbul və təqdir edilirdi. “Tarixə bu günün vəzifəsi nöqteyi-nəzərindən yanaşma” birmənalı tələb kimi irəli sürülür.

Müasir mövzu tarixi mövzuya qarşı qoyulur, “yeni şura tematikası şura ədəbiyyatının yaradılması üçün zəruri bir əsas” kimi qəbul edilir.

Sovet ədəbiyyatşünaslığı ilk mərhələdə (30-cu illərdə) sosialist realizmini sovet ədəbiyyatının yeganə yaradıcılıq metodu elan etsə də, ədəbiyyatşünaslığın sonrakı inkişaf mərhələlərində sosialist realizminin yaradıcılıq metodu, yoxsa ədəbi cərəyan olması məsələsi öz qəti həllini tapmasa da, realist yaradıcılıq metodu kimi onun mənşəyi, təşəkkülünə təkan verən amillər məsələsi ciddi tədqiqatların predmeti olmuşdur. Sosialist realizminin tarixi köklərinin tənqidi realizmdə axtarılması ədəbiyyatşünaslıqda müəyyən mübahisələr doğursa da, son nəticədə məsələ tənqidi realizmin xeyrinə həll olunmuşdur.

---

[15] Zeynallı, H. Hüseyn Cavidin yazdığı “Peyğəmbər” haqqında mülahizələrim / H.Zeynallı. – Seçilmiş əsərləri. – Bakı: Yazıçı, – 1983. – s.36-80.

[16] Əfəndiyev, H. Nəsrimiz yüksəliş yollarında / H.Əfəndiyev. – Bakı: Azərnəşr, – 1937. – s 46.

Tənqidi realistlər də daxil olmaqla, ədəbi-estetik düşüncə gizli tendensialılığı – müəllif məqsədinin bədii mətnin alt qatlarında gizlədilməsi yolunu təqdir etdi. Gizli tendensialılıq müəllif mövqeyinin obyektivliyinin, əsərin bədii təsir gücünün qorunması baxımından indi də təqdir olunmaqdadır. Y.Qarayev yazırdı: "*Bir yaradıcılıq metodu kimi tənqidi realizmin növbəti spesifik xüsusiyyətini təşkil edən və Engelsin realizm təlimində də ayrıca toxunulan əlamətlərdən digəri bu realizmə məxsus "tendensiyalılıq" keyfiyyətinin daha çox "gizli", "daxili", "mətnaltı" xasiyyəti məsələsidir... Fəal, aydın, aşkar, ictimai təəssüb və motivlər gərək birbaşa, çılpaq tövsiyyələr yolu ilə yox, bəlkə "Şekspir üsulu" ilə "daha canlı, daha fəal, necə deyərlər, vaqeənin öz hərəkəti nəticəsində kortəbii təqdim olunsun, izahvari nitqlər isə ..., əksinə, getdikcə daha çox lazımsız sayılsın".*[17]

Həm "tənqidilik" keyfiyyətində, həm də keçmişə münasibətdə bu iki yaradıcılıq metodu arasında ciddi fərqlər var idi. Buna görə də ədəbi tənqidin tənqidi realizmə məxsus bəzi səciyyəvi əlamətləri süni şəkildə sosialist realizminə calaq etməsinə baxmayaraq, 40-cı illərə doğru hər iki metodun sintezinin özünü doğrultmağı aşkar olurdu. 40-cı illərdə M.Arif yazırdı ki, "*...tənqidi realizm bu gün sosializm quruluşu dövründə artıq çoxdan keçilmiş bir mərhələdir. Bu realizm artıq nəinki sovet estetikasının yüksək tələblərinə cavab verə bilməz, hətta o, sovet estetikasının inkişafına bəzən (bacarıqla istifadə edilmədikdə) mane də olur*"[18].

Dissertasiyanın ikinci fəsli "**40-cı illər və 50-ci illərin birinci yarısı Azərbaycan ədəbiyyatında sosrealist metod və ədəbi tənqid" adlanır.** Bu fəslin *"40-cı illərin birinci yarısında ədəbi tənqidin sosialist realizminin bədii inikas imkanlarını genişləndirmək cəhdləri"* adlanan birinci paraqrafında göstərilir ki, 40-cı

---

[17] Qarayev,Y. Realizm: Sənət və həqiqət / Y.Qarayev. – Bakı: Elm, – 1980. – s. 146

[18] Salamoğlu, T. Azərbaycan ədəbiyyatının müasir problemləri / T.Salamoğlu. – Bakı: "EL" NPŞ MMC, – 2014. –s.222

illər Azərbaycan ədəbi tənqidində sosialist realizminin bədii inikas imkanlarını artırmaq cəhdləri ilə daha çox səciyyəvilik qazanır. Lakin bu proses bütün onillik boyu davam etmir. Ədəbi tənqidin bədii yaradıcılığa münasibəti mənasında 40-cı illərin birinci yarısı ilə ikinci yarısı arasında əsaslı fərqlər müşahidə olunur.

Tədqiqatlarda tamamilə doğru vurğulanır ki, "*istər mövcud dövrün tənqidi, istərsə də sonrakı ədəbi fikir 1920-30-cu illər ədəbiyyatını, o cümlədən poeziya və nəsrini daha çox "keçid dövrü ədəbiyyatı" kimi səciyyələndirmişdir*"[19]. Bu dəqiq müşahidədən çıxış etsək, deməliyik ki, 40-cı illər artıq "keçid dövrü" deyildi, ədəbiyyatın birmənalı şəkildə və bütövlükdə sovet mərhələsinə daxil olduğu ilk onillik idi. Bu mərhələ 50-ci illərin ortalarına qədər uzanır. Ədəbiyyatşünaslığımızda əksər tədqiqatlarda 50-ci illərin sonu, bəzi yeni tədqiqatlarda isə 50-ci illərin ortaları yeni keyfiyyət mərhələsinin başlanğıcı kimi götürülür. Bu illərdən başlayaraq ədəbiyyatda sosialist realizmi standartlarının dağılma prosesi başlayır. 40-cı illər və 50-ci illərin birinci yarısı isə sovet ədəbiyyatının sosialist realizmi çevrəsində inkişafı ilə şərtlənir.

40-cı illərin birinci yarısında tənqidin qarşısında duran ən mühüm vəzifə sosialist realizmi ədəbiyyatını yüksək sənətkarlıq səviyyəsinə qaldırmaq olur. Tarixi mövzuya münasibət dəyişir, ədəbi tənqid tarixə obyektiv münasibət tələb edir, lakin bunu sosialist realizmi prizmasından əks etdirməyi zəruri hesab edir.

40-cı illərin birinci yarısında sənətdə fəlsəfilik və fəlsəfəçilik problemi ədəbi tənqidin müzakirə obyektinə çevrilir. Tənqidin bədii əsərdə həyat hadisələrinə həqiqi fəlsəfi münasibət axtarışı sosialist realizminin həyatı bədii inikas imkanlarını genişləndirmək səyi kimi mənalanır.

Müharibə dövrünün tənqidində sənətdə romantika, müsbət qəhrəman məsələlərinə xüsusi diqqət sosialist realizminin təsdiqedici pafosunu gücləndirmək meylinə xidmət edir.

---

[19] Əlişanoğlu, T. Əsrdən doğan nəsr / T.Əlişanoğlu. – Bakı: Elm, – 1999. – s.85

Sovet ədəbiyyatının, sosialist realizminin təsdiqedici pafosu ən çox müsbət qəhrəman vasitəsilə reallaşdırılır. Müsbət qəhrəman sosialist realizmini digər yaradıcılıq metodlarından fərqləndirən əlamətdar keyfiyyət kimi qəbul olunur.

40-cı illərin ədəbi tənqidi sosrealizmdə tənqid pafosuna da yer ayırır. Lakin əsas şərt bundan ibarət olur ki, canlılıq və təbiilik mənasında müsbət qəhrəman mənfi qəhrəmandan irəlidə olsun.

40-cı illərin ikinci yarısından 50-ci illərin ortalarına qədərki mərhələdə siyasi rejimin ədəbiyyat siyasətində sosrealizmin ideoloji məzmununun qüvvətləndirilməsi ilə bağlı tənqidin üzərinə ciddi vəzifələr qoyulur. Bu mərhələdə ədəbi tənqid öz fəaliyyət proqramını UİK(b)P MK-nın 1946-1948-ci illərdə ədəbiyyat və incəsənət haqqındakı qərarları əsasında qurur.

Ədəbi tənqidin məsələlərə 1946-cı ilə qədərki yanaşmaları ilə 1946-cı ildən sonrakı yanaşmaları arasında ciddi fərq yaranır.

Ədəbi tənqid 1932-ci ildən 40-cı illərin ortalarına qədərki müddətdə tarixi mövzu, romantik inikas prinsipləri, tənqidi təsvirin yeri və digər məsələlərdə sosrealizmin bədii inikas imkanlarını genişləndirmək cəhdləri ilə bağlı təşəbbüslərindən və bu istiqamətdəki əməli fəaliyyətindən geri çəkilir.

Bu dövrdə yazılan əksər tənqidi məqalələr öz başlanğıcını birbaşa partiya qərarlarından götürür, onları müsbət istiqamətdə şərh etməyə istiqamətlənir, tarixi mövzuya, həyatın tənqid pafosu ilə təsvirinə kəskin tənqidi yanaşma mövqeyi ortaya qoyur.

Bu illərdə həqiqi romantik təsvirə "mücərrəd romantika" damğası vurulur, sosrealizmdə özünə yer alan "inqilabi romantika"nın məzmunu bu təsvir üsulunun ənənəvi məzmunundan uzaqlaşdırılır.

Ədəbi tənqid məfkurəviliyi "bolşevik partiyalılığı" səviyyəsində təfsirə çalışır. Ədəbiyyata metodoloji münasibətin xarakteri prinsip etibarı ilə 1925-ci ildən 1932-ci ilə qədərki mərhələ ilə birləşir.

Bununla belə, 40-cı illər və 50-ci illərin birinci yarısındakı ədəbiyyatın və tənqidin bədii keyfiyyətə artan tələblə bağlı

yüksələn xətt üzrə inkişaf etdiyini söyləmək çətindir. 40-cı illərin birinci yarısında tənqidin ədəbiyyata yanaşmaları 40-cı illərin ikinci yarısı və 50-ci illərin birinci yarısındakından köklü şəkildə fərqlənir. Sovet ədəbiyyatşünaslığında 1941-45-cı illər müharibə dövrü ədəbiyyatı kimi fərqləndirilir. Bu illərdə ədəbiyyatın qarşısında duran vəzifələrin kifayət qədər dəyişdiyi, ədəbiyyatın faşizmə qarşı mübarizə ruhuna kökləndiyi önə çəkilir, təbliği funksiyanın güclənməsi ilə bağlı bəzi janrların önə, bəzilərinin arxa plana keçdiyi vurğulanır.

Müharibə illərində professional tənqidi təhlili daha çox publisistikanın əvəz etdiyi də bir həqiqətdir: "Müharibə illərində tənqidçilərin tez-tez istifadə etdikləri janrlardan biri də publisistika idi"[20]. Lakin bu heç də professional tənqidi təhlildən imtina deyildi. Bu cəhət mərhələnin tənqidinə elmi qiymət verən sovet ədəbiyyatşünaslığında da etiraf olunmuşdur. "Azərbaycan sovet ədəbiyyatı tarixi" dərsliyində oxuyuruq: "*O zaman* (müharibə illərində – K.Ə.) *yeni bədii əsərlərin yaranmasında, ümumən ədəbi prosesin inkişafında tənqidin təqdirəlayiq rolu olmuşdur. Dövrün ədəbi tənqidi öz vəzifəsini yeni yaranan əsərləri təhlil etməklə, hətta ayrı-ayrı əsərlərin, onları yazan müəlliflərin yaradıcılığındakı konkret mövqeyini müəyyənləşdirməklə məhdudlaşdırmırdı. Müharibə dövrü tənqidçisinin vəzifəsi əsərin təhlilinə, onun ideya-bədii qüvvəsinin və ya zəif cəhətlərinin müəyyənləşdirilməsinə məhz Vətən müharibəsi nöqteyi-nəzərindən yanaşmaq və bu yol ilə də müharibə iştirakçısı olan milyonlarla sovet adamına, onların qələbəsinə kömək*» idi[21].

İkinci paraqraf "*40-cı illərin ikinci yarısından 50-ci illərin ortalarına qədərki mərhələdə siyasi rejimin ədəbiyyat siyasəti. Sosrealizmin ideoloji məzmununun qüvvətləndirilməsi və ədəbi tənqidin üzərinə qoyulan vəzifələr*" adlanır və burada qeyd olunur

---

[20] Azərbaycan sovet ədəbiyyatı tarixi: [2 cilddə]. – Bakı: Azərb. SSR EA nəşr., – c.1. – 1967. – s.452

[21] Yenə orada, s.452

ki, tənqidin 40-cı illərin ortalarında ədəbi prosesdə müşahidə etdiyi "zəiflik və arxayınçılıq" mahiyyətcə onun öz əbədi və əzəli qanunlarına qayıtmaq cəhdi, immanent qanunlarına söykənərək ideoloji-siyasi funksiyadan bu və ya digər dərəcədə imtina meylinin ifadəsi idi. UİK(b) P MK-nın "Zvezda" və "Leninqrad" jurnalları haqqında" 14 avqust 1946-cı il, "Dram teatrlarının repertuarı və onu yaxşılaşdırmaq tədbirləri haqqında" 1946-cı il 26 avqust, "Böyük həyat" kino-filmi haqqında" 1946-cı il 4 sentyabr, B.Muradelinin "Böyük dostluq" operası haqqında" 1948-ci il 10 fevral tarixli qərarları bu imtina meylinin qarşısını almaq, onun güclənməsinə yol verməmək məqsədi daşıyırdı. Sovet ədəbiyyatşünaslığı ədəbiyyat və incəsənət haqqındakı partiya qərar-larını bu sahələrin inkişafını stimullaşdıran və sürətləndirən tədbirlər kimi izah etmişdir. "*Azərbaycan sovet ədəbiyyatı tarixi"ndə oxuyuruq". "UİK(b) P MK-nın "Zvezda" və "Leninqrad" jurnalları haqqqında" 1946-cı il 14 avqust tarixli qərarı müharibədən sonrakı dövrdə Azərbaycan ədəbiyyatının ideya-bədii inkişafına böyük bir təkan verdiyi kimi, ədəbi-tənqidi fikrin istiqamətini də müəyyən etdi"*[22].

40-50-ci illərdə nəsrə gələn Ə.Məmmədxanlı və İ.Əfəndiyevin simasında stereotip təsviri düşüncədən uzaqlaşıb, fikrin metaforik-simvolik ifadəsinə meyl edən və bununla da əsərlərinin ideya-məzmun polifonizminə çalışan, dünya ədəbi təcrübəsindən çıxış edən sənətkarları ədəbi tənqid bütün gücü ilə sosrealizmin dar çərçivəsində saxlamağa çalışır, onların yaradıcılıq axtarışlarını həyatdan uzaqlaşmaq kimi dəyərləndirib, sxematizm və mücərrədlik damğası vururdu. M.Arif yazırdı: "*Mücərrəd romantika ünsürlərinə M.Ənvərin və Ə.İlyasın bəzi hekayələrində də rast gəlirik. Bir sıra realist hekayələr müəllifi olan M.Ənvər "Əfsanəli dağlar", "Ay işığında" və "İldırım işığında" kimi hekəyələrində canlı real həyatdan uzaqlaşaraq "əfsanələr"*

[22] Azərbaycan sovet ədəbiyyatı tarixi: [2 cilddə]. – Bakı: Azərb. SSR EA nəşr., – c.2. – 1967. – s.151

*aləminə cummuşdur. Bu hekayələrdə müəllif adamları konkret tariximizdən ayırıb, zaman və məkan xaricində təsvir etmiş, mücərrədləşdirmişdir*"[23]. Ədəbi prosesdə cərəyan edən hadisələrə münasibətdə M.Hüseyn də M.Ariflə eyni mövqedən çıxış edir: "*Müasir Azərbaycan ədəbiyyatında çox zəif bir qol hesab etdiyimiz "mücərrəd romantika" yolu nümayəndələrinin arzu və istəyi yalnız inqilabımızı tərənnüm etməkdir. Ə.Məmmədxanlı da, İlyas Əfəndiyev də, Yusif Əzimzadə də sovet dövründə boy atmağa başlamış və bugünkü ədəbiyyatımızın böyük məqsədlərinə xidmət etmək istəyən ədəbi gəncliyin nümayəndəsidir. Lakin onlarda yalnız fantaziya gücünə arxalanmağa böyük bir meyl vardır... İ.Əfəndiyev, Y.Əzimzadəyə üz tutub deməliyik ki, siz müasir həyatımızı, mübarizəmizi, ictimai varlığımızı bilavasitə və dərindən müşahidə etmədikcə, sosialist realizmi metodunun mahiyyətini layiqilə mənimsəmədikcə, əfsanələrdən əl çəkmədikcə və böyük şeiriyyəti sovet adamlarının yaradıcı əməyində axtarmadıqca, bədii-məfkurəvi cəhətdən qüvvətli əsərlər yarada bilməyəcəksiniz*"[24].

Dissertasiyanın üçüncü fəsli **"50-ci illərin birinci yarısından sonra tənqidi düşüncənin sosialist realizmi yaradıcılıq metoduna ideoloji və sənət həqiqətləri prizmasından yanaşmaları"** adlanır və iki paraqrafdan ibarətdir. "*Yeni keyfiyyət mərhələsində (50-ci illərin ikinci yarısı və 60-80-ci illərdə) sosrealist metod və ədəbi tənqid*" adlanan birinci paraqrafda göstərilir ki, 50-ci illərin ikinci yarısı ədəbiyyat tariximizə yeni keyfiyyət mərhələsinin başlanğıcı kimi daxil olur. Yeni keyfiyyət mərhələsi 60-80-ci illəri də öz içərisinə alır.

Bu mərhələdə sosialist realizminə elmi baxışlarda sosioloji-ideoloji və sənət həqiqətləri prizmasından yanaşmaların paralelliyi

---

[23] Arif, M. Sosialist realizminin bəzi məsələləri // Arif, M. Seçilmiş əsərləri: [3 cilddə] / M.Arif. – Bakı: Azərb. SSR EA nəşr., – c.3. – 1967. – s.233.

[24] Hüseyn, M. Əsərləri: [10 cilddə] / M.Hüseyn. – Bakı: Yazıçı, – c.10. – 1979. – s.41.

müşahidə edilir. Bu paralellik xüsusən 50-ci illərin ikinci yarısını və 60-70-ci illəri əhatə edir.

"Konfliktsizlik nəzəriyyəsi" kəskin tənqidə məruz qalır. Lakin onun meydana çıxmasının sovet ədəbiyyatının nəzəri prinsipləri və yaradıcılıq metodunun təbiəti ilə bağlılığına toxunulmur, əsas səbəb kimi sənətkar istedadının və həyatı iti müşahidənin çatışmaması göstərilir. Azərbaycan yazıcılarının II qurultayında milli ədəbiyyatda qabarıq şəkildə təzahür edən konfliktsizlik nəzəriyyəsi, onun ayrı-ayrı nümunələri kəskin tənqidin predmeti olsa da, bu təmayül daha çox yazıçıların "*həyat həqiqətini dərindən-dərinə öyrənməməsi", "həyatı realistcəsinə verməkdənsə, öz qabaqlarına qələm, mürəkkəb yox, zər qutularını qoyub rəngsazlığa başlamaq*" [25] kimi dəyərləndirildi. Əslində konfliktsizlik nəzəriyyəsi bilavasitə partiyanın 1946-48-ci il qərarlarından istiqamət almış, sənətkarların öz yaradıcılıq təbiətlərinə uyğun, onları çəkən və düşündürən mövzular üzərində sərbəst işləmək imkanlarından məhrum etmək, konkret mövzulara istiqamətləndirməklə bağlı olmuşdur. Lakin qurultaylarda partiya qərarlarının ədəbiyyatın inkişafına verdiyi güclü təkandan söz açılır, yazıçıların bu qərarları düzgün başa düşməmələri "konfliktsizlik"in səbəbi kimi qələmə verilirdi. S.Rəhimov öz məruzəsində deyirdi: "*Mərkzi Komitənin " Zvezda" və " Leninqrad" jurnalları haqqında qərarı, elə də bu qərardan sonra məfkurə məsələləri haqqında qərarlar bizə kömək etdi, ədəbiyyat və sənətimizin inkişaf istiqamətlərini doğru- düzgün yola saldı... Lakin qeyd etmək lazımdır ki, bizim bəzi yazıçılarımız bu tarixi qərar və göstərişlərdən düzgün nəticə çıxara bilmədən başqa bir qütbə yuvarlandılar*"[26].

---

[25] Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onun qarşısında duran vəzifələr haqqında. Azərbaycan Sovet Yazıçıları İttifaqının sədri Süleyman Rəhimov yoldaşın məruzəsi // – Bakı: Ədəbiyyat və incəsənət. – 1954, 17 aprel. – s.1.

[26]Yenə orada, s.1.

Ədəbi tənqid məfkurəviliyə - partiyalılığa və sinfiliyə yaradıcılıq metodunun təbiətində xüsusi yer ayırmağa davam edir. Xəlqilik partiyalılıq prinsipi ilə əvəz edilir və bu tənqidi düşüncədə "sənətdə yeni məzmunlu xəlqilik" kimi xarakterizə edilir.

Realizmin tarixi ənənəsindən gələn və sovet dövrü ədəbiyyatında da bu və ya digər dərəcədə özünü göstərən açıq və gizli tendensiyalılıq prinsiplərinə sinfi-ideoloji don geydirilərək onların sosialist realizmi ədəbiyyatında partiyalılıq prinsipi şəklində meydana çıxması əsaslandırılır.

Lakin bu mərhələdə estetik düşüncənin tənqidi düşüncədən qabağa çıxması, ədəbi prosesdə sosialist realizminin sərhədlərini yarıb keçmək meyli qüvvətli bir şəkil alır. Ədəbi prosesdəki bu təmayül tənqidi düşüncəyə də təsirsiz qalmır. Tənqid ədəbi prosesi qiymətləndirmədə sosialist realizmi üçün müəyyənləşdirilmiş doqmatik prinsiplərin çərçivəsindən çıxmağa, bədii əksetdirmədə müşahidə olunan yeni cəhətləri sosialist realizminin həyatı inikas üsullarının genişliyi, onun həyatın bütün mürəkkəbliklərini inikas imkanında olması kimi əsaslandırmağa çalışır.

Ədəbi tənqiddə sosialist realizminin təşəkkülünün və inkişafının tarixi qanunauyğunluğunu, onun realizmin və romantik təsvir üsulunun ən mütərəqqi estetik prinsiplərinin ənənəsi əsasında yaranmasını sübut etməyə çalışan tədqiqatlar yazılır. Sosialist realizminin tipologiyasını araşdırmaq meyli güclənir və bu, metodun daxilində fərdi üslubların geniş tədqiqinə, eyni zamanda bu fərdi üslubların dominant cəhətləri əsasında meydana çıxan üslubi təmayüllərin mövcudluğunu etiraf etməyə və bu istiqamətdə araşdırmalar aparmağa imkan yaradır.

Metodun daxilində romantik, satirik, şərti-metaforik və s. üslubi təmayüllərin fərqləndirilməsi bir tərəfdən tənqidi düşüncəni bədii inikas üsullarının keçdiyi tarixi yolla sosialist realizmi arasında irs-varislik əlaqəsini müəyyənləşdirməyə gətirib çıxarır; digər tərəfdən isə, sovet ədəbiyyatı üçün xüsusi şəkildə müəyyənləşdirilmiş yaradıcılıq metodunun estetik düşüncənin müqaviməti, ədəbiyyatın immanent qanunlarının təzyiqi qarşısında

davam gətirmədiyini, xüsusən 80-ci illərdə bu metodun öz əvvəlki təbiətindən büsbütün qopmaqda və yeni bir realizm tipi kimi formalaşmaqda olduğunu sübut edir.

Sosialist realizminin yaradıcılıq metodu kimi araşdırılmasında onun keçib gəldiyi tarixi yolu ümumiləşdirmək, onun mənşəyini araşdırmaq tendensiyası 60-70-ci illər tənqidində xüsusi aktuallıq və elmi dəyər kəsb edirdi. Yaradıcılıq metodunun istər mənşəyinin, istərsə də tarixinin araşdırılmasında əsas məqsəd onun yaranmış tarixi şəraitin, ictimai-siyasi proseslərin ədəbiyyata təsirilə bağlı olaraq qanuni estetik hadisə kimi doğulduğunu, ədəbi prosesin təbii inkişafının nəticəsi olduğunu əsaslandırmaq idi. Ədəbi tənqid sosialist realizminin milli ədəbi prosesdəki rolunu aşkarlamaq, onun mənşəyi və tarixini, tipologiyasını milli ədəbi material əsasında araşdırmağı elmi-metodoloji cəhətdən düzgün və aktual hesab edirdi. Prof. Y.Qarayev yazırdı: "*Sosialist realizminin mənşəyi müxtəlif milli ədəbiyyatların materialı əsasında artıq işlənmiş bir problemdir. Vəzifə bu problemin məhz Azərbaycan ictimai-ədəbi mühitindəki fərdiliyini, milliliyini əks etdirən spesifikanı müəyyən etmək, Azərbaycan realizmini həm ümumi realizm prosesilə birləşdirən, həm də onu bu prosesin vahid tipoloji tendensiyasından ayıran xüsusiyyətləri meydana çıxarmaqdır. Məhz bu vəzifənin elmi-fəlsəfi cəhətdən şərhi və həlli Azərbaycan ədəbiyyatında realist sənətin ayrıca bir tipi səviyyəsində sosialist realizmindən danışmağa bizə haqq verərdi*"[27].

"*Milli müstəqillik dövrünün ədəbi tənqidində sosrealist ədəbiyyata yanaşmaların tipologiyası*" adlanan ikinci paraqrafda göstərilir ki, bu dövrdə tənqidi ədəbiyyatda xüsusi vurğulanır ki, "*Azərbaycan tarixində sosializm mərhələsi və Azərbaycan ədəbiyyatının sovet dövrü XX əsr tariximizin iki azadlıq və suverenlik qütbü – 1920-1990-cı illər arasındakı 70 ili əhatə*

[27] Qarayev, Y. Tənqid: problemlər, portretlər / Y.Qarayev. – Bakı: Azərnəşr, – 1976. – s.99-100

*edir*"[28]. Bu mülahizə adi informatik yükü ilə yox, milli müstəqillik dövrünün elmi düşüncəsinin artıq arxada qalan 70 illik dövrün ədəbiyyatına hansı psixoloji durumda qiymət verməli olduğunu da önə çəkir.

70 illik tarixi dövrün ədəbiyyatının elmi və metodoloji cəhətdən düzgün dəyərləndirmədən bundan sonrakı yolun perspektivlərini müəyyənləşdirmək mümkün deyil. Yaxşı cəhətdir ki, milli tənqid bu yolla getməyə özündə güc tapır.

Tənqid üçün tam aydın olur ki, "*ədəbiyyat köhnəlmiş meyllərdən uzaqlaşmalıdır, özünə qayıtmalıdır, öz mahiyyətini tapmalıdır... Biz bu günümüzü daha tez-tez dünənimizin işığında görməyə və anlamağa ehtiyac duyuruq. Yəqin edirik ki, zəmanəmizə tarixi baxışı dəyərləndirmədən, idrakımızın hüdudlarını genişləndirmədən cəmiyyətin yenidən təşkili kimi əzəmətli bir vəzifəni həyata keçirmək, üzləşdiyimiz mürəkkəb problemlərin həllinə nail olmaq mümkün deyildir*"[29].

2000-ci illərə doğru tənqid sosrealist ədəbiyyatın meydana çıxma qanunauyğunluqları, əhatə etdiyi tarixi coğrafiya genişliyi haqqında düşünməyə, onun göydəndüşmə bir proses olmadığını əsaslandırmağa çalışır. Tənqid sosialist realizminin məkan hüdudlarının genişliyinə nüfuz etdikcə, onun postsovet məkanından kənarda da mövcud olması faktına diqqət çəkir və realizmin tarixi tipologiyasındakı və inkişaf mərhələlərindəki yerini müəyyənləşdirməyə uğurlu cəhdlər edir. Prof. Ş.Alışanlı sosrealizmin, eyni zamanda, Bolqarıstan, Kuba, Polşa, Almaniya, Çin, Türkiyə ədəbiyyatlarında mövcudluq faktlarını önə çəkərək belə bir qənaətə gəlir ki, "XX əsr dünya ədəbi-mədəni fikrindəki bu mədəniyyət tipini sovet sivilizasiyasının məhsulu hesab edən elmi

---

[28] Şəmsizadə N. Sovet ədəbiyyatı, yoxsa sovet dövrü ədəbiyyatı? // Şəmsizadə, N. Seçilmiş əsərləri: [3 cilddə] / N.Şəmsizadə. – Bakı: Elm, – c.3. – 2011. – s.331.

[29] Hüseynov, A. Ədəbiyyat və ideologiya // Hüseynov, A. Həyat və sənət həqiqəti / A.Hüseynov. – Bakı: "T" Nəşriyyat-Poliqrafiya Mərkəzi, – 2000. – s.137.

fikir daha haqlıdır: "*Sovet sivilizasiyası özünün spesifik bədii mədəniyyətini – sosialist realizmini yaratdı. Sosialist realizmi XX əsrin aparıcı ədəbi cərəyanlarından biridir" (Y.Borev*)"[30].

"XX əsrin nüfuzlu sosial-fəlsəfi söz sahibləri"nin, milli ədəbiyyatşünaslıqda Elçin, T.Əlişanoğlu kimi tədqiqatçıların araşdırmalarına istinad edən Ş.Alışanlı belə qənaətə gəlir ki, sosialist realizmi XX əsrin mədəni hadisəsi kimi meydana çıxmaqla, "göydəndüşmə" bir ədəbiyyat olmayıb "*XIX-XX əsrlər maarifçi və tənqidi realistlərin ədəbi irsi üzərində formalaşıb inkişaf edirdi*"[31].

Sosrealist ədəbiyyatı analitik elmi dəyərləndirmədə özünü göstərən ikinci təmayül onun keçdiyi tarixi inkişaf mərhələlərini və ümumilikdə sovet dövründə yaranan ədəbiyyatı birtipli, birmənalı ədəbiyyat kimi qiymətləndirmək meylindən uzaqlaşmaqdır. İlk növbədə, tənqid sovet ədəbiyyatı – sosrealist ədəbiyyatla sovet dövrü ədəbiyyatı anlayışlarını fərqləndirməyi zəruri hesab edir. Ədəbi tənqiddə "*sovet ədəbiyyatı, yoxsa sovet dövrü ədəbiyyatı*" dilemmasının analitik xarakterli tənqidi yazıların sərlövhəsinə çıxarılması[32] məsələyə baxış sistemlərindəki elmi fərqləri ortaya qoyur.

Beləliklə, müstəqillik dövründə tənqidi düşüncə böyük əksəriyyətlə sosialist realizmini ədəbi prosesin tarixi inkişaf yolunda qanunauyğun hadisə kimi qəbul edə bilmir.

Bununla belə, zaman keçdikcə ədəbi tənqiddə sosialist realizminin keçdiyi tarixi inkişaf mərhələlərini və ümumilikdə sovet dövründə yaranan ədəbiyyatı birtipli, birmənalı ədəbiyyat kimi qiymətləndirmək meylindən uzaqlaşma halları özünü göstərir. Müstəqillik dövrünün əvvəllərində sosialist realizminə inkarçı və

---

[30] Alışanlı, Ş. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı / Ş.Alışanlı. – Bakı: Elm, – 2011. – s.242

[31] Yenə orada, s.244

[32] Şəmsizadə N. Sovet ədəbiyyatı, yoxsa sovet dövrü ədəbiyyatı? // Şəmsizadə, N. Seçilmiş əsərləri: [3 cilddə] / N.Şəmsizadə. – Bakı: Elm, – c.3. – 2011. – s.331.

kəskin tənqidi münasibət bir qədər sonra ona analitik yanaşma tendensiyası ilə əvəz olunur.

Dissertasiyanın "**Nəticə**" hissəsində araşdırmada irəli sürülən fikir və mülahizələr, elmi nəzəri müddəalar ümumləşdirilərək belə ümumi qənaətə gəlinir ki, tənqid və ədəbiyyatşünaslıq bütöv bir epoxanın ədəbiyyatının yaradıcılıq metodu kimi mövcud olmuş sosialist realizminin qeyri-estetik prinsiplərini müəyyənləşdirib, bundan imtina etməyi, ədəbiyyatın irəliyə doğru hərəkətinə təkan verən cəhətlərinə sahib çıxmağı, başqa sözlə ədəbi ənənəyə analitik tənqidi yanaşmanı ən düzgün çıxış yolu sayır.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. 20-ci illərdən 30-cu illərə: "Dialektik materializm"dən "sosialist realizmi"nə // – Bakı: Bakı Qızlar Universitetinin elmi əsərləri, – 2014. №2(18), – s.23-31.
2. 20-30-cu illərin ədəbi tənqidində yaradıcılıq metoduna dair mübahisələr // – Bakı: Pedaqoji Universitet xəbərləri, Humanitar elmlər bölməsi, – 2014. №4, – s.290-294.
3. 20-30-cu illər ədəbi tənqidi və sosrealizmdə romantika məsələləri // "Azərbaycanşünaslığın aktual problemləri" mövzusunda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları. – Bakı: Mütərcim, – 2015. – s.329-331.
4. 20-30-cu illər tənqidinin ədəbiyyatda bədiilik axtarışları // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. – 2015. №2(94). – s.167-169.
5. Tənqid və ədəbiyyatda "sinfi insan" problemi // – Bakı: Pedaqoji Universitet xəbərləri, Humanitar elmlər bölməsi, – 2017. №2, – s.58-65.
6. 40-cı illərin tənqidi: Sosrealizmdə tarixi mövzuya münasibət // – Bakı: Elmi xəbərlər. Gəncə Dövlət Universiteti, Humanitar elmlər bölməsi, – 2017. №2, – s.264-267.

7. Sosrealizmdə tarixi mövzu problemi və ədəbi tənqidin məsələyə baxışının tipologiyası (40-cı illərin I yarısı Azərbaycan ədəbi tənqidinin materialları əsasında) – Bakı: Pedaqoji Universitet xəbərləri, Humanitar elmlər bölməsi, – 2018. №3, – c.66. – s.19-27.

8. Соцреалистический метод и литературная критика в Азербайджанской литературе первой половины 40-ч годов XX века // – Киев: Язык и культура. Киевский Национальный Университет имени Тараса Шевченко. – Выпуск 20. – Том IV (189), – 2017. – с.205-212.

9. Литературный обзор политического режима середины 1940-50-х годов // Материалы международной научной конференици на тему «Теория и практика современной науки и просвещения», – Днепр: – 29-30 ноября, – 2019, –с.346-348

10. 30-cu illərdə sosialist realizmi yaradıcılıq metodunda bədii qəhrəmana verilən tələblər // Материалы IV научно-методической конференции «Совершенствование методики обучения языкам: площадка обмена прогрессивной проактикой», – Казань – Нурсултан –Измир: 20 февраля, – 2020, – с.62-64.

Dissertasiyanın müdafiəsi 28. oktyabr 2021-ci il tarixində saat 16^00 Azərbaycan Milli Elmlər Akademiyasi Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi,31

Dissertasiya ilə AMEA Folklor İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 28.09.21 il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 24.09.2021

Kağızın formatı: 60*84/$^{1/16}$

Həcmi: 34823

Tiraj: 100 nüsxə